# Rəşad Məcid Türk Ədəbiyyatı Vəqfinin 2021-ci il üçün "Türk Dünyasına Üstün Xidmət" mükafatına layiq görülüb




Vəqfin başqanı Sərhat Kabaklının bu barədəki açıqlamasında Rəşad Məcidin həm Azərbaycan, həm də Türk dünyasında gənc ədiblərin yetişməsinə önəmli töhfələr verməsi, şeir, hekayə janrında yazdığı əsərlərinin onlarla dilə tərcümə olunması, xüsusən, publisistik yazılarıyla Türk dünyasının fərqli problemlərini diqqət mərkəzinə çəkməsi üstün cəhətlər kimi vurğulanır. Həmçinin bildirilir ki, R.Məcid özünün yüksək təşkilatçılığı ilə Azərbaycanın və AYB-nin Türk dünyasının ədəbi mərkəzlərindən birinə çevrilməsində mühüm rol oynayıb, onun rəhbərlik etdiyi "525-ci qəzet"də bu istiqamətlər hər zaman xüsusi yer tutub. Türk Ədəbiyyatı Vəqfi, Avrasiya Yazarlar Birliyi, Türkiyə Elmi və Ədəbi Əsər Sahibləri Məslək Birliyi (İLESAM) və digər qurumlarla əməkdaşlığı sayəsində R.Məcid həm də Azərbaycan ədəbiyyatının, mədəniyyətimizin Türk dünyasında təbliği naminə ciddi işlər görüb. Sözügedən Vəqfin seçimində bütün bu cəhətlərə xüsusi diqqətlə yanaşıldığı üçün qurumun rəhbərliyi R.Məcidin 2021-ci il üçün "Türk Dünyasına Üstün Xidmət" mükafatı ilə təltif olunmasına qərar verib.